# MÜDRİK NƏZİRİN HƏYATINDAN EPİZODLAR

***Nəzir Abdulla oğlu (1820-1908) orta boylu, enli kürəkli, hazırcavab, tədbirli və müdrik bir kişi olub. İlk gəncliyindən mahalda sayılıb-seçilən olduğuna görə çox yüksək nüfuzu varmış. Yaşa dolduğdan sonra kənd camaatı arasında olan narazılıqları ayırd etməyə qarışır və ədalətlə mübahisəli məsələləri aydınlaşdırırmış. Obada xalq buna inanır, kimlərin mübahisəli məsələsi olarmışsa gəlib onunla məsləhətləşərmiş. Ona görə də 1885-ci ildə həmyerliləri onu kəndxuda vəzifəsinə seçiblər.***

## Ödəməlisən

Bir dəfə kənd çobanı otardığı sürüdəki qoyunu vurub öldürür. Sahibi ödəməyi tələb edir. Çoban razılaşmır. Mübahisəni araşdırmaq üçün Nəzir kişiyə müraciət edirlər.

Kəndxuda Nəzir çobandan soruşur:

- Çoban, sən qoyunu nəynən vurdun. Ağacla yoxsa daşla?

- Nəzir baba, çomağımla vurdum.

- Çomağı əlində tutub vurdun, yoxsa atdın?

- Qoyun bir az aralıda taxıla düşmüşdü, çomağı atıb qaytarmaq istədim.

- Sonra o çomağı gedib götürdün, yoxsa orda qaldı?

- Əlbəttə gedib götürdüm.

- Onda kişinin qoyununu ödəməlisən. Əgər çomağın dalınca gedəcəydinsə, atmayıb gedəydin. Nə qoyun ölərdi, nə də sən cərimıəyə düşərdin.

## Ağlını başına yığ

Bir dəfə Nəzir kişinin oğlu Əhməd qoyun sürüsü Çaqqalı yaylağından arana enəndə sayır düz olur. Aranda bir ay sonra yenə sayır sürüdən otuz qoyun əskik gəlir. Atası Nəzir kişiyə deyir:

- Ay ata, qoyunu saydım sürüdən otuzu əskik gəldi. Qonaqları olub öldürüblər çıxdım, xəstə olub, ölüb çıxdım, qurd-quş aparıb onu da çıxdım, yenə otuz qoyun əskikdir.

Nəzir kişi soruşur:

- İndi nə eləmək istəyirsən, oğul?

- Məhkəməyə verib otuz qoyunumuzu alacam.

- Onda sabah iti bir dəhrə götürüb Gendərə meşəsinə get.

- Nə üçün, orda mənim nə işim var?

- Özünə zoğal ağacından yaxşı bir çomaq kəs, düzəlt.

- Çomaq mənim nəyimə lazımdır?

- Qoyunumuzu otarmaq üçün.

- Mən çoban ha deyiləm.

- Sən çobana qoyunu ödədəndə, hansı köpək oğlu sənin sürünü otarar. Sən istəyirsən ki, el-oba sabah töhmətlə danışsın ki, Abdulla oğlu Nəzir kişi çobana qoyun ödədir.

Bu fikri başından çıxart, ağlını başına yığ!

## Nəzir babanın səxavəti

Əllinci illərdə Quşdanoğlu Mustafa danışırdı ki, Keçəl təpədə Nəzir kişinin sürüsünü otarırdım. Bir dəfə dana boyda qoç qəfldən partlamaya düşdü. Murdar olmamaq üçün tez kəsdik. Çoban yoldaşım dəli Əskərlə onu soyub təmizlədik. Xurcuna qoyub kəndə, Nəzir babagilə gətirdim. Kişi həyətdə payız günəşinin altında oturmuşdu.

- O nədi a Mustafa, gətirdiyin?

- Ay baba, - dedim, bir kök qoç öldü. Gətirdim ki, uşaqlar bişirib yesinlər. Soymuşam, tər-təmizdi...

Nəzir baba heç soruşmadı, niyə, nədən ölüb. Dərhal dedi:

- Qaytar, qaytar apar, özünüz yeyin bir də belə şeyi buraya gətirmə. Onu da bilin ki, haqqınızdan çıxmayacam. Halal eləyirəm. Bunu nuş canlıqla yeyin, yerdə qalanına yaxşı baxın.

## Əvəzində ödək-zad almayacam

Bir dəfə Çaqqalı yaylağında Nəzir kişinin qoynunu otaran çoban mürgüləyib yatır. Sürü arxacdan yellənib gedir. Canavar sürüdən on yeddi qoyunu tələf edir. Qoyunların leşlərini yığıb gətirirlər. Bəzisini itlərə verirlər, bəzisini də basdırırlar. Sürü arxaca gələndə çoban oturub ağlayır. Nəzir kişi çobana yaxınlaşıb soruşur:

- Niyə ağlayırsan, a bala?

Çoban dinmir, yenə soruşur:



Şəmistan NƏZİRLİ

- Dillən görüm niyə ağlayırsan?

Çoban ağlaya-ağlaya deyir:

- Necə ağlamayım, başıma iş gəlib, bu qədər qoyunu canavar tələf eləyib.

Nəzir kişi çobana təsəlli verib deyir:

- Nə qorx, nə də ağlayıb-sızlama olan yerdən ölər də, itər də. Sən qəsdən eləməmisən ki, gecə kimdə olsa yatmalıdır. Sizə tapşırmışam ki, gecə qoyunu tək otarmayın. Həmişə yoldaşınla birgə otar. Onu bil ki, yatdın öldün fərqi yoxdu. Get sürünü otar, yoldaşınla. Sizdən heç bir ödək-zad almayacam...

Deyib, günahkar çobanı bağışlayır.